**UOT 78.O3**
**https://doi.org/10.59849/2311-8482.2024.2.166**

**AYNUR QASIMOVA**

# NƏRİMAN MƏMMƏDOVUN VƏTƏNƏ HƏSR OLUNMUŞ "NAXÇIVAN" VOKAL-İNSTRUMENTAL SÜİTASI

*Məqalə görkəmli Azərbaycan bəstəkarı Nəriman Məmmədovun yaradıcılığında Vətən mövzusu ilə bağlı vokal-instrumental əsərlərin təhlilinə həsr olunub. Müəllif N.Məmmədovun həyat və yaradıcılığına nəzər salaraq, onun Naxçıvandan başlayan sənət yolunun mərhələlərini xarakterizə edir. Bəstəkarın yaradıcılığında Vətən mövzusuna həsr olunmuş əsərlərdən "Naxçıvan" vokal-instrumental süitası təhlil olunaraq, əsərin poetik mətni, musiqi dili və quruluş xüsusiyyətləri təhlil olunur.*

***Açar sözlər.*** Bəstəkar, vokal-instrumental əsərlər, Vətən mövzusu, süita.

**Giriş**

Naxçıvan torpağının yetirməsi olan görkəmli bəstəkar, Azərbaycan Respublikasının xalq artisti, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi, professor Nəriman Məmmədovun yaradıcılığı geniş və çoxcəhətlidir. O, simfoniyalar, simfonik poemalar, instrumental konsertlər, xalq çalğı alətləri orkestri üçün süitalar, vokal-simfonik, kamera-instrumental, vokal əsərlər, baletlər, musiqili komediyaların müəllifi olaraq, Azərbaycan musiqi irsində özünəməxsus yer tutmuşdur.

**Əsas təhlil**

Nəriman Məmmədov qədim tarixə və musiqi ənənələrinə malik olan Naxçıvan şəhərində anadan olmuşdur. Məlum olduğu kimi, dünyanın ən qədim insan məskənlərindən biri kimi tanınmış Naxçıvan mədəniyyət, memarlıq və incəsənət sahələrinə öz töhfələrini vermişdi. Naxçıvan bir çox görkəmli tarixi şəxsiyyətlərin, şair və yazıçıların,elm, mədəniyyət və incəsənət xadimlərinin vətənidir. Naxçıvan torpağı özünün yallıları, xalq mahnıları,aşıq havaları, xalq çalğı alətləri, musiqi ifaçıları ilə tanınmışdır.

Belə ki, Nəriman Məmmədovun da həyat və yaradıcılıq yolu Naxçıvandan başlamış, fəaliyyət sahələri burada formalaşmışdır. Müstəqil yaradıcılıq yoluna qədəm qoyduqdan sonra da bəstəkar Naxçıvanla sıx əlaqə saxlamış, muxtar respublikanın musiqi həyatında yaxından iştirak etmişdir. O, öz yaradıcılığında həm Naxçıvana əsərlər həsr etmiş, həm də bu diyarın xalq musiqisi ənənələrinin öyrənilməsi ilə məşğul olmuşdur.

N.Məmmədovun yaradıcılığında doğma yurdu Naxçıvana həsr olunmuş əsərlər xüsusi yer tutur. İslam Səfərlinin sözlərinə solist, xor və xalq çalğı alətləri orkestri üçün "Naxçıvan" süitası, Hüseyn Razinin sözlərinə "Araz üstündə Çənlibel qalası" vokal-instrumental süitası, Ramiz Heydərin sözlərinə "Çiçəklənən Naxçıvan" süitası bu mövzuya həsr olunmuşdur. Bu əsərlərdə doğma yurdun gözəllikləri, bəstəkarın vətəninə görə qürur hissləri tərənnüm olunur.

Bəstəkarın "Naxçıvan" vokal-instrumental süitası Azərbaycan xalq çalğı alətləri orkestri, solist və xor üçün nəzərdə tutulmuşdur. 1964-cü ildə yazılmış və Naxçıvan Muxtar Respublikasının 40 illiyinə həsr olunmuşdur .

Qeyd etmək lazımdır ki, Azərbaycan xalq çalğı alətləri orkestri yarandıqdan sonra bəstəkarların yaradıcılığında xüsusi olaraq bu orkestr üçün əsərlər meydana gəldi: fantaziyalar, süitalar və s. Azərbaycan bəstəkarları xalq çalğı alətləri orkestri üçün müxtəlif məzmunlu, rəngarəng əsərlər yaratmışlar. Bu orkestrin populyarlığının nəticəsidir ki, Azərbaycan bəstəkarlarının yaradıcılığında həmçinin vokal-instrumental süitalar meydana gəlmişdir. Bu kimi süitalar solistlər, xor və orkestr üçün nəzərdə tutulmaqla, bəzən rəqs ansamblının ifası da daxil edilir. Buna görə də bu kimi süitalarda instrumental epizodlar da mühüm əhəmiyyətə malikdir. Bu cəhəti N.Məmmədovun "Naxçıvan" vokal-instrumental süitasında da görə bilərik. Süita beş hissədən ibarətdir, bunlardan dördüncü hissə instrumental, digərləri isə vokal-instrumental hissələrdir.

N.Məmmədovun "Naxçıvan" vokal-instrumental süitası İslam Səfərlinin sözlərinə bəstələnmişdir. Burada hər hissədə müxtəlif şeir mətnlərindən, iki və ya üç bənddən ibarət şeirlərdən istifadə olunub.

I hissənin poetik mətni:
1.Şərqin qapısında ucalan diyar,
Araz tək gümüşü bir kəmərin var.
Sevimli Naxçıvan, sevimli vətən.
Bu bayram günündə əlvan geyin sən.
Nəqərat:
Qoynuna çıxdıqda hər gün seyrə biz,
Fərəhdən bir dağa dönür qəlbimiz.
Könlü şən ol hər zaman, doğma Naxçıvan.

II hissənin poetik mətni:
1.Çöllərindən keçən mənəm,
Söz qoşmadan keçən mənəm,
Sularından içən mənəm.
Mənim barlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.
Nəqərat:
Şöhrətim, şanım,
doğma məkanım,
Sən nə gözəlsən,
ey Naxçıvanım!

III hissənin poetik mətni:
1.Gör nə çalır könül simi:
Şerə verdim mən eşqimi,
Mirzə Cəlil, Bəhruz kimi
Sənətkarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım!
Nəqərat:
Şöhrətim, şanım,
Doğma məkanım,
Sən nə gözəlsən,
Ey Naxçıvanım -
Azərbaycanım!

V hissənin poetik mətni:
Yaşa, yaşa! Nəxşi-cahan, şən diyar.
Oğlun, qızın ömür sürsün bəxtiyar.
Sən azəri torpağının gözüsən,
Bu ellərin söhbəti, sözüsən.
Şəqrdə ilkin azadlığa çıxdın sən.
Bu ellərdir sənə qayğı göstərən.
Qoca Şərqin qapısında hər zaman.
Yaşa, yaşa, ey günəşli Naxçıvan.
Yaşa, yaşa Azərbaycan.

Göründüyü kimi, süitanın poetik mətni kifayət qədər genişdir. Bu şeir mətnlərinin bənd-nəqərat quruluşu musiqi materialının da müvafiq quruluşunu şərtləndirmişdir. Süitanın hissələri kuplet-nəqərat formasına əsaslanır. Süitanın xarakteri, quruluşu və musiqi dilinin xüsusiyyətlərinə görə xalq mahnı-rəqslərinə yaxındır.

Süitanın beş hissəli quruluşunda hissələr tempinə görə təzadlıq prinsipi üzrə ardıcıllaşır.

I hissə - Allegretto moderato
II hissə - Allegretto
III hissə - Moderato
IV hissə - Allegro
V hissə - Allegretto

Onu da deyək ki, süitanın hissələrinin musiqi materialı arasında kəskin kontrastlıq yoxdur, onlar əsasən lirik mahnı xarakterlidir, məzmununa görə isə vətənpərvərlik ruhundadır, vətənin gözəlliklərinin tərənnümünə həsr olunmuşdur. Əsərin əsas mənası da ondan ibarətdir ki, bir mövzunun müxtəlif tərəflərinin açılmasına xidmət edir. Süitanı Naxçıvan haqqında mahnılar silsiləsi kimi də dəyərləndirmək olar.

Süitanın musiqi dilində xalq mahnı və rəqs xüsusiyyətlərinə yaxınlıq onun məzmunundan irəli gəlir. Əsərin melodik quruluşu məqam əsası ilə sıx bağlı milli intonasiyaları ilə zəngindir.

I hissə - Allegretto moderato, solist və orkestr tərəfindən ifa olunur. Melodiya sol-diyez mayəli şur məqamına əsaslanır. Hissənin bütün mövzuları məqamın dayaq pillələrinə istinad edir. Harmonik quruluşda segaha yönəlmələr də özünü göstərir, bu da musiqiyə xarakterinə görə təsirli intonasiyalar aşılayır. Kupletin mövzusu yüksələn-enən hərəkətlə məqamın kvinta tonuna istinad edir. Melodiya yumşaq, axıcı xarakter daşıyır. Nəqəratın mövzusu kvarta tonu üzərində təkrarlanmalara əsaslanır .

II hissə - Allegro, orkestrin müşayiətilə xorun ifasında səslənir. İnstrumental girişin musiqisi kupletin müşayiət əsasına çevrilir. Kvarta-kvinta quruluşlu akkordlara əsaslanan harmonik fon dayaq pillələrinə və ritmik quruluşuna görə melodiyanın quruluşuna təsir edir və mahnının ümumi xarakterinin açılmasında mühüm əhəmiyyətə malikdir.

III hissə - Moderato, süitanın lirik mərkəzidir. Tremolo şəkilli müşayiət fon əsasında solistin və xorun dialoquna əsaslanır. Melodiyanın özəyini bir melodik fraza təşkil edir. Mi mayəli rast məqamına əsaslanan melodik quruluş enən hərəkətli eyni bir melodik frazanın təkrarlanmalarından əmələ gəllir. Nəqəratın musiqi mövzusu kupletin intonasiyalarına əsaslanaraq, eyni səviyyədən başlanır. Lakin nəqəratın melodik xətti enən sekvensiyalar zənciri ilə tonikaya çatdırılır.

IV hissə - Allegro, instrumental hissədir, ruhuna görə xalq rəqslərinə yaxındır. Musiqinin metro-ritmik və melodik quruluşu onun xarakterini müəyyən edir. Bu hissə üçhissəli quruluşa əsaslanır, orta bölmə işləmə xüsusiyyətlidir. Bu hissənin musiqi formasında orkestrləmənin böyük əhəmiyyəti var, kənar bölmələrinin orkestr dilinin dolğunluğu orta bölmədə daha şəffaf xarakter alır.

V hissə - Allegretto, himn xarakterlidir, süitanı təntənə ilə yekunlaşdıran bir hissədir. Quruluşuna görə üç bölmədən ibarət olub, kənar bölmələr oxşar quruluşludur, orta bölmə də musiqi materialına görə əsas mövzunun variantını təşkil etsə də, məqam əsasına və istinad pilləsinə görə fərqlənir.

Süitada mövzunun həlli müxtəlif üsullarla həyata keçirilir ki, mövzuların bir özəkdən yetişməsini qeyd etməliyik, həmçinin onlar bir-birinə kontrastlıq təşkil etmir. Mövzular enən və yüksələn hərəkətli olub, möhkəm məqam-tonallıq əsasına malikdir. Tonika səsinin dəfələrlə təkrarlanmasından sonra melodiyanın mayədə dayanması xalq musiqisindən gələn qanunauyğunluqdır. Melodiyanın quruluşunda yüksələn və enən kvarta gedişləri mühüm yer tutur.

**Nəticə**

N.Məmmədovun vokal-instrumental süitasinin səciyyəvi üslub cizgiləri vokal və instrumental hissələrə xas olan mahnıvarilikdən ibarətdir və bütün vokal epizodlar xalq mahnıları ruhundadır.

Beləliklə, N.Məmmədovun nəzərdən keçirdiyimiz "Naxçıvan" vokal-instrumental süitası vətənpərvərlik mövzusuna, vətənin tərənnümünə həsr olunmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Bəstəkarlar İttifaqı. 1934-1994. / Z.Qafarova, İ.Əfəndiyeva, L.Hüseynova, F.Hüseynova [və b.]. – Bakı: Səda, – 1996. – 114 s.
2. Nəcəfova, Z.M. Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq çalğı alətləri orkestri üçün süitalar. / Sənətşünaslıq namizədi dis. avtoreferatı. / - Bakı, 2009. – 28 s.

3. Novruzova, İ. Nəriman Məmmədovun yaradıcılığına bir nəzər. // – Bakı: Musiqi dünyası. Beynəlxalq, elmi-pedaqoji, tənqidi-publisistik, mədəni-maarif musiqi jurnalı. - 2002, № 1-2 (11). - s. 126-129.
4. Zöhrabov, R.F. Bəstəkarlarımızın portreti. / R.F.Zöhrabov. - Bakı: Gənclik. - 1997. - s. 96-100.
5. Фархадова, Р.Дж. Нариман Мамедов. / Р.Дж.Фархадова. - Баку: Ишыг. - 1982. - 48 с.

***Naxçıvan Dövlət Universitetinin baş müəllimi**
***E-mail: aynur.qasimovaa1977@gmail.com***

**Aynur Gasımova**

**"NAKCHIVAN" VOCAL-INSTRUMENTAL SUITE, DEDICATED TO THE FATHERLAND BY NARIMAN MAMMADOV**

The article is devoted to the study of vocal and instrumental works dedicated to the Motherland in the work of the prominent Azerbaijani composer Nariman Mammadov. The author characterizes the life and creative path of N.Mammadov, which began with Nakhchiv an. The vocal-instrumental suite «Nakhchivan» occupy a special place in the composer's work, the poetic text of the article examine, musical language and the features of the structure of these works.

**Keywords:** *Composer, vocal and instrumental works, Homeland theme, suite.*

**Айнур Гасимова**

**ВОКАЛЬНО-ИНСТРУМЕНТАЛЬНАЯ СЮИТА «НАКЧЫВАН», ПОСВЯЩЕННАЯ ОТЕЧЕСТВУ НАРИМАНА МАМЕДОВА**

Статья посвящена изучению вокально-инструментальных произведений, посвященных Родине, в творчестве видного азербайджанского композитора Наримана Мамедова. Автор характеризует жизненный и творческий путь Н.Мамедова, начавщийся с Нахчывана. В творчестве композитора особое место занимают вокально-инструментальная сюита «Нахчыван», в статье рассматриваются поэтический текст, музыкальный язык и особенности строения этого произведения.

**Ключевые слова:** *Композитор, вокально-инструментальные произведения, тема Родины, сюита.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 01.04.2024**
**Son daxilolma tarixi:05.05.2024**